BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# MOSKVA ÇARLIĞININ XARİCİ SİYASƏTİNDƏ BALTİK İSTİQAMƏTİNİN FORMALAŞMASI

**S.B.HÜSEYNOVA**
***Bakı Dövlət Universiteti***
***sevda-huseynova@mail.ru***

*Məqalə XVI əsrin ortalarından etibarən Avropanın ən qüvvətli mərkəzləşmiş dövlətlərindən birinə çevrilən mərkəzləşmiş Rus dövlətinin dənizlərə çıxmaq uğrunda mübarizəsinin başlanması probleminin təhlilinə həsr olunmuşdu. Burada «Baltik məsələsi»nin beynəlxalq problemə çevrilməsi faktik materiallar əsasında geniş işıqlandırılmışdır. Müəllif həmçinin bü dövrdə Avropanın yeni siyasi və hərbi böhranı haqqında da maraqlı fikirlər irəli sürmüşdür.*

Artıq XVI əsrin ortalarından etibarən mərkəzləşmiş qüdrətli bir dövlətə çevrilən Moskva çarlığı Kazan və Həştərxan xanlıqlarını işğal etdikdən sonra xarici siyasət sahəsində ciddi seçim qarşısında qaldı. O, üç əsas istiqamət arasında ən uğurlusunu seçmək zəruriyyəti ilə üzləşmiş oldu: 1) Litva və Polşa feodalları tərəfindən işğal olunmuş Ukrayna və Belorus torpaqları uğrunda mübarizə; 2) Krım xanlığının inadkar və getdikcə güclənməkdə olan təzyiqinə qarşı qüvvələri səfərbər etmək; 3) Baltik dənizinə çıxmaq, Baltikyanı torpaqlar uğrunda mübarizəyə başlamaq (2, 20) Məhz üçüncü istiqamətin seçilməsi İvan Qroznının adı ilə bağlıdır. Onun dövlət xadimi kimi fəaliyyətinin əhəmiyyəti də rus dövlətinin iqtisadi inkişafı üçün Baltikyanı regionun birləşdirilməsinin böyük əhəmiyyətini dərindən başa düşməsi ilə izah olunur. «O, Livoniyaya qarşı çıxmaq cəhdlərində inadlı idi. Bununla da şüurlu şəkildə Baltik dənizinə çıxmaq və Avropaya yol açmaq məqsədini qarşısına qoymuşdu. Məhz bu cəhəti I Pyotrun ona olan heyranlığının əsasını təşkil edirdi» (2, 30).

Baltik uğrunda 1558-ci ildə başlayan müharibə çox tezliklə ümumavropa miqyaslı konfliktə çevrilmiş oldu. Müharibənin birinci ili zəif Livoniya Moskva dövlətinə müqavimət göstərmək gücündə olmadığını büruzə verdi. Baltikyanı torpaqlar uğrunda bütün maraqlı Avropa dövlətləri arasında mübarizə alovlan-mağa başladı. Litva, Polşa, İsveç, Danimarka müharibəyə birbaşa qoşulmuş oldu. Litva bir sıra ciddi məğlubiyyətlərdən sonra çox çətin vəziyyətə düşdü və polyak feodallarının birləşmə haqqındakı təzyiqlərinə tabe olaraq 1569-cu il Lyublin uniyası ilə Polşa ilə bir dövlətdə birləşdi. Bu dövlət Reç-Rospolita adı altında tarixə düşmüş oldu.

1569-cu ildən sonra artıq Ukrayna və Belorus torpaqlarının da slyaxta-katolik ekspansiyası başlanmış oldu.

Polşa-Litva ordusunun birgə hücumlarının uğur qazandığını görən İsveç ordusu da hücum əməliyyatına başladı. Artıq 1581-ci ilin sonlarına yaxın, demək olar ki, bütün Fin körfəzi isveçlərin əlində idi. Ən ağır itki isə Narvanın isveçlərin əlinə

keçməsi oldu. Pribaltikada isveçlərin uğurları artıq Reç-Pospolitanın da şübhə və narazılığına səbəb oldu. Bu baxımdan 1587-ci ildə kral Batori isveçlərdən qəti şəkildə Livoniyadan imtina etməyi tələb etdi. İvan Qroznı bu ziddiyyətdən istifadə edərək, təşəbbüsü yenidən ələ keçirmək üçün cəhdlər göstərsə də, uğurlu alınmadı. Belə ki, Batori isveçlərlə mübahisənin həllinin Rusiya ilə müharibənin sonuna qədər təxirə salınacağını bəyan etmiş oldu (1, 105)

Livoniya müharibəsinin sonuna yaxın Avropada yaranan belə mürəkkəb beynəlxalq münasibətlər sistemi müharibənin iştirakçısı olan 3 əsas dövlət – Rusiya, Reç-Rospolita, İsveç arasında bağlanan müqavilələr əsasında tənzimlənirdi. Rusiya ilə Reç-Rospolita arasındakı münasibətləri 1582-ci ilin əvvəllərində 10 il müddətinə bağlanmış Jam-Zapolski müqaviləsi müəyyən etmiş oldu (4, 29). IV İvan Livoniyadan imtina etməli oldu. Polotsk ərazisi də Reç-Rospolitanın nəzarəti altına keçdi. Ancaq başda Velikaya liqa olmaqla bir sıra işğal olunmuş şəhərlər Rus dövlətinə qaytarıldı (1, 106)

İsveç ilə qarşılıqlı münasibətlər isə bir sıra qısamüddətli müqavilələr əsasında tənzimlənmiş oldu. Beləliklə, 1583-cü ildə Plusidə bağlanmış müqaviləyə görə Rus dövləti yenidən onun üçün zəruri olan Baltikə çıxışdan məhrum edildi. Ona yalnız Fin körfəzinin böyük olmayan bir hissəsi verildi. Jam, Koporye və İvanqorod kimi şəhər-istehkamlar isə İsveçin əlinə keçmiş oldu (3, 56).

Ancaq bu məğlubiyyəti son saymayan və inadla Rus dövlətini dəniz dövlətinə çevirmək istəyən İvan Qroznı Baltik uğrunda yeni müharibəyə hazırlaşmaq qərarını qəbul etdi.

Rus dövlətinin bu siyasətinin aktivləşməsinə Rusiya ilə Reç-Pospolita arasında 1582-ci ilin yayında bağlanmış sülh müqaviləsi də dəstək vermiş oldu. Bu müqaviləyə görə Jam-Zapolski müqaviləsinin şərtləri yalnız İsveçin əlində olan Şimali Estoniya şəhərlərinə şamil edilirdi (6, səh.45). Başqa sözlə bu ərazilərə hər cür müdaxilə Reç-Pospolita ərazisinə müdaxilə kimi qiymətləndiriləcəkdi.

Ümumilikdə isə 80-ci illərin ortalarından etibarən Polşa kralı Stefan Batorinin xarici siyasəti antirus xarakteri daşıyırdı. Reç-Pospolita ilə daimi müharibə təhlükəsi şəraitində Baltik məsələsi rus xarici siyasətində arxa plana keçmiş olur. Rus hökumətinin bütün diqqəti ölkəni gözlənilən Polşa-Litva hücumundan qorunmaq üçün səfərbər etməyə toplandı. Ancaq tezliklə Moskvaya Stefan Batorinin ölüm xəbəri gəldi (4, 18). Reç-Pospolitada «kralsızlıq» dövrü yaranmış oldu.

Belə bir fürsətdən istifadə edən Rus dövləti Polşa və Litva feodallarına Rusiyaya birləşmək təklifini çatdırmaq üçün öz nümayəndələrini – Jelizari Rjevski və Zaxari Svyazev – Reç-Pospolitaya göndərdi. Varşavaya isə başda boyar Stepan Qodunov olmaqla «böyük elçilik» göndərildi. Bu nümayəndə heyəti seymdə Reç-Posrolita tacına çar Fyodorun namizədliyini təqdim etməli idi (1, 74).

Söhbət iki dövlətin-Rusiya və Reç-Pospolitanın iki müstəqil dövlət olmaqla bir xüsusi uniya daxilində birləşməsindən gedirdi. Xarici siyasət sahəsində isə hər iki dövlət öz növbəsində müttəfiqinə köməklik göstərməli və onun ərazisini qorumalı idi. Xarici siyasət kursunda rus diplomatları 2 əsas problemin həllini ön plana çəkirdilər: birincisi, Danimarka və İsveç tərəfindən işğal olunmuş Baltik torpaqlarının taleyi məsələsi, ikincisi isə Krım türklərinə qarşı birgə müqavimət planının hazırlanması məsələsi. Bu ikinci problemin həllində Reç-Pospolita özü Rusiya qədər maraqlı idi. Uniyanın layihəsinin son məqsədi isə Don və Dnepr boyu istehkamlar tikərək Krımı

tabe etmək, sonra isə birlikdə (Rusiya və Reç-Pospolita) digər Avropa dövlətləri ilə ittifaqa girərək Osmanlı imperiyasına qarşı hücuma başlamaq planını həyata keçirməkdən ibarət idi (5, 45).

Hadisələrin belə gedişi isə İsveç diplomatiyasını qane etmirdi. O, Rusiya ilə Reç-Pospolitanın siyasi birliyinə heç cürə yol verə bilməzdi. Çünki belə bir ittifaqın yaranması İsveçin böyük dövlətçilik iddialarına tam zidd idi. Ən əsas məsələ isə Baltik üzərində nəzarətin taleyi məsələsi idi. Bu faktorların təsiri altında kral III Juxan (gələcək kral Sigizmundun atası) Reç-Pospolita seyminə nümayəndə heyəti göndərərək, Estoniyanı ona vermək müqabilində taxt-taca oğlu Sigizmundun namizədliyini vermiş oldu. Həmçinin İsveç dövlətinin seçki qabağı kompaniyası hər iki dövlətin (İsveç və Reç-Pospolita) qüvvələrini Rusiyaya qarşı birləşdirməsi şüarı altında aparılırdı (5, 50).

İsveçin bu addımlarının nəticəsi Rusiya üçün uğursuz oldu. Belə ki, 1587-ci ildə İsveç hökuməti ilə Polşa-Litva feodal dairəsi arasında siyasi blok yarandı ki, bu da sonralar Rolşa-İsveç uniyasına çevrilmiş oldu (1, 98).

Beləliklə, rus diplomatiyasının Reç-Pospolita ilə uniya yaratmaq planı uğursuzluğa düçar oldu. Bu nəticəyə ən önəmli səbəb Pribaltika ərazisinin birləşdirilməsi təklifi oldu (4, 26). Ancaq bunun əvəzində 1587-ci il avqustun 26-da hər iki dövlət arasında 15 illik barışıq müqaviləsi imzalandı. Bu müqavilə müəyyən dərəcə də Rusiyanın maraqlarına uyğun gəldi. Belə ki, uzun müddətə Reç-Pospolita ilə müharibələrə ara verildi. Həmçinin müqavilə Rusiya ilə İsveç arasında müharibə başlayacağı təqdirdə Reç-Pospolitanın neytrallığını təmin edirdi. Rusiya həmçinin Baltik regionunda İsveç ərazilərinə qarşı hərəkət azadlığı alırdı (6, 163-166).

Beləliklə, rus hökuməti üçün İsveçdən Baltik dənizinə çıxış hüququ almaq imkanı yaranmış oldu. Bu məqsədlə o artıq sərhəddə toplanmış olan ordudan istifadə etmək niyyətində idi. Elə buna görə də danışıqlarda rus nümayəndələri ən zəruri şərt kimi Narvanın Rusiyaya verilməsi tələbini irəli sürdülər. Ancaq İsveç dövləti bundan imtina etdi və çar Fyodorun başçılıq etdiyi rus ordusu 1590-cı ilin yanvarında Estoniyanın İsveç hissəsinə daxil oldu və Narvanı mühasirəyə aldı. Hərbi əməliyyatlar uzun çəkmədi və fevralın sonlarında 1 il müddətinə sülh müqaviləsi imzalandı. Bu müqaviləyə görə rus ordusu tərəfindən tutulmuş Jam, İvanqorod və Koporye şəhərləri Rusiyaya keçmiş oldu. Narva isə yenə də İsveçin hakimiyyəti altında qaldı (3, 398) və yenə də bu dövrdə Rusiya öz əsas məqsədinə – Baltikə çıxmağa nail ola bilmədi.

### ƏDƏBİYYAT


1. Вернадский Г.В. Россия в середине века. Тверь-Москва: Просвещение, 2001, 119 с.
2. Заборовский Л.В. Россия, Речь Посполитая и Швеция в середине XVII в. М.: Наука, 1981, 180 с.
3. Королюк В.Д. Ливанская война. М: Наука, 1954, 109 с.
4. Скрынников Р.Г. История Российская IX-XVII вв. М.: Наука, 1997, 496 с.
5. Флоря Б.Н. Русско-польские отношения и Балтийский вопрос в конце XVI – начале XVII вв. М: Наука, 1973, 223 с.
6. Флоря Б.Н. Бескоролевье 1587 г. в Речи Посполитой и проблема анти-турецкой коалиции. Кишинев: Просвещение, 1973, 303 с.
7. Сахаров А. История России. С древнейших времен до наших дней. М.: Наука, 2010, 500 с.

# ФОРМИРОВАНИЕ БАЛТИЙСКОГО НАПРАВЛЕНИЯ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ МОСКОВСКОГО ЦАРСТВА

**С.Б.ГУСЕЙНОВА**

## РЕЗЮМЕ

Статья посвящена проблеме начала борьбы за выход к морям централизованного Русского государства, превратившийся с середины XVI века в одну из самых сильных среди централизованных государств Европы. В статье на основе фактических материалов подробна освещена проблема превращения «Балтийского вопроса» в международную проблему. Автор выдвинул также интересную мысль о политическом и военном кризисе в Европе в этот период.

# “THE DEVELOPMENT OF BALTIC DIRECTION IN THE FOREIGN POLICY OF MOSCOW TSARDOM”

**S.B.HUSEYNOVA**

## SUMMARY

This article is dedicated to the analysis of the struggle of centralized Russian government, one of the most powerful and centralized states of Europe since the middle of the XVI century, for access to seas. Throughout the article, the significance of the “Baltic issues” as an international problem is profoundly interpreted based on actual materials. The author has also put forward interesting arguments about Europe’s political and military depression during that period.